

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 9 (22.920)

*17 yanvar 2018-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komitəsinin rəhbəri Volkan Bozkırın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komitəsinin rəhbəri Volkan Bozkır bildirib ki, Bakıya budəfəki səfərinin məqsədi Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq əlaqələr və parlamentlərarası münasibətlər komitəsi ilə birgə keçirilən iclasda iştirak etməkdir.

Ötən il ərzində üç dəfə Türkiyəyə səfər etdiyini deyən Prezident İlham Əliyev Türkiyə Respublikası Prezidentinin, Baş nazirinin, həmçinin müxtəlif nazir və millət vəkillərinin Azərbaycana səfərlərinin əhəmiyyətini qeyd edib, ölkələrimiz arasında dostluq və əməkdaşlığın əlaqələrinin daim möhkəmləndiyini, Azərbaycan ilə Türkiyənin beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq və qarşılıqlı dəstək nümayiş etdirdiklərini vurğulayıb.

Dövlətimizin başçısı Türkiyə Böyük Millət Məclisinin xarici əlaqələr komitəsinin rəhbəri Volkan Bozkırın Bakıya budəfəki səfərinin də öz növbəsində uğurlu olacağına, parlamentlərarası əlaqələrin Azərbaycan-Türkiyə birliyini və əməkdaşlığını daha da möhkəmləndirəcəyinə əminliyini ifadə edib.



## 2017-ci ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində keçirilən kollegiya iclasında “2017-ci ildə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin cinayətkarlığa qarşı mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinin nəticələri və beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında qarşıya qoyulan vəzifələr” mövzusunda daxili işlər naziri, general-mayor Fazil Ələkbərov məruzə edib. Bildirilib ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmizdə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda sabitlik tam təmin olunub, ictimai-siyasi asayiş və təhlükəsizlik nəzarətdə saxlanılıb.

Vurğulanıb ki, hesabat dövründə muxtar respublikada 24 cinayət faktı qeydə alınıb. Bu da 2016-cı illə müqayisədə 5 fakt azalmaqla 17,3 faiz olub, cinayətlərin açılması isə 100 faiz təşkil edib. Regionda təqsirləndirilən şəxslərin axtarışı istiqamətində aparılmış əməliyyat-axtarış tədbirləri nəticəsində istintaq və məhkəmədən yayınan səkkiz nəfərdən altısının yeri müəyyənləşdirilərək tutulub, axtarış işinin göstəriciləri 75 faiz təşkil edib. Haliyədə 2 nəfər təqsirləndirilən, 1 nəfər isə xəbərsiz itkin düşmüş şəxs kimi axtarılır.

Qeyd olunub ki, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi sahəsində hadisələrin qarşısının alınması məqsədilə texniki sistemlərin tətbiqinə geniş yer verilərək davamlı şəkildə profilaktik tədbirlər həyata keçirilib. Müvafiq dövrdə 13 yol-nəqliyyat hadisəsi baş verib, qəzalar nəticəsində 12 nəfər ölüb, 7 nəfər isə yaralanıb. 2016-cı illə müqayisədə qəzaların sayı 7 fakt, ölənlərin sayı isə 8 nəfər azalıb.

Elektrik enerjisindən və təbii qazdan qanunsuz istifadənin qarşısının alınması, həmçinin təbiəti mühafizə istiqamətində də tədbirlər davam etdirilib. Həyata keçirilən tədbirlər nəticəsində 229 fakt aşkarlanıb və həmin faktlar üzrə 16 min 300 manat məbləğində cərimə tətbiq olunub.

Diqqətə çatdırılıb ki, vətəndaşların şəxsiyyəti təsdiq edən sənədlərlə təmin edilməsi üzrə fəaliyyət də qənaətbəxş olub. Pasport-qeydiyyat və miqrasiya şöbəsi tərəfindən 22 min 425 nəfərə ümumvətəndaş pasportu, 33 min 908 nəfər vətəndaşa, o cümlədən cəzaçəkmə müəssisələrindən azadlığa buraxılan 35 nəfərə şəxsiyyət vəsiqəsi verilib. Vətəndaş məmnunluğunun təmin edilməsi çərçivəsində bu iş əməkdaşlar tərəfindən, eyni zamanda “Səyyari xidmət” vasitəsilə də davam etdirilərək 3955 nəfərə şəxsiyyət, 1418 nəfərə sürücülük vəsiqəsi verilib və digər xidmətlər göstərilib. Hesabat dövründə 5400 nəfərdən artıq vətəndaş bu xidmətdən yararlanıb.

Yeni informasiya texnologiyasının tətbiqi sahəsində bir sıra işlər görülərək yerli polis orqanlarının Elektron Sənəd Dövriyyəsinə qoşulması başa çatdırılıb.

Məruzə ətrafında müzakirələrdə nazirliyin katibliyinin rəisi, polis polkovniki Yusif Həsənov, Culfa, Babək, Şərur rayonları polis şöbələrinin rəisləri, polis mayoru Nəriman İbrahimov, polis polkovnik-leytenantı Teymur Quliyev, polis mayoru Şahmar Abdullayev, nazirliyin İctimai Təhlükəsizlik İdarəsinin rəisi səlahiyyətlərini müvəqqəti icra edən polis kapitanı Elvin Səfərli, kadrlar şöbəsinin rəisi, polis polkovnik-leytenantı Rəşad Seyidov çıxış ediblər.

Kollegiyada nazirliyin 2018-ci il üçün Əsas Təşkilat Tədbirlər Planının təsdiq edilməsi barədə məlumat verilib.



Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında keçirilən yığıncaqda Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramovanın 2017-ci ildə görülən işlər barədə geniş məruzəsi dinlənilib.

Bildirilib ki, 2017-ci ildə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı fəaliyyətini, əsasən, insan hüquqlarının müdafiəsi və pozulmasının qarşısının alınması, daxil olan müraciətlərin araşdırılması, müvafiq tədbirlərin görülməsi, elmi-analitik fəaliyyətin, əhalinin müxtəlif sosial qruplarına ünvanlanan və insan hüquqlarının müxtəlif istiqamətlərini əks etdirən hüquqi maarifləndirici tədbirlərin həyata keçirilməsi dövlət və yerli özünüidarəetmə orqanları ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində davam etdirib.

Vurğulanıb ki, 2017-ci ildə əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi və bu sahədə hüquqi maarifləndirmə diqqət mərkəzində saxlanılıb, bu səpkidə 71 tədbir keçirilib, ümumilikdə isə bu tədbirlərdə 1870 nəfər iştirak edib.

Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nda nəzərdə tutulmuş tədbirlərin muxtar respublikada təbliği və öyrənilməsi məqsədilə müvafiq tədbirlər keçirilib.

Eyni zamanda ötən ildə Müvəkkilin preventiv mexanizm yurisdiksiyasının şamil olunduğu orqanlar üzrə, ümumilikdə, 31 müəssisədə mütəmadi olaraq və əvvəlcədən xəbərdarlıq edilmədən 107 başçəkmə həyata keçirilib.

Məruzəçi qeyd edib ki, ötən ildə də informasiya və ictimaiyyətlə əlaqələrin təşkili istiqamətində işlər davam etdirilib. Belə ki, Müvəkkilin rəsmi internet səhifəsində informasiyaların mütəmadi olaraq yenilənməsi, elektron kitabxana bazasının daha da zənginləşdirilməsi, muxtar respublikada insan hüquqları ilə bağlı həyata keçirilən tədbirlərin, o cümlədən Müvəkkil və təsisatın fəaliyyətinin işıqlandırılması, elektron müraciət səhifəsinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılıb.

Sonra Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) 2018-ci il üçün iş planı təsdiq edilib.



Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən kollegiya iclasını giriş sözü ilə açan komitə sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov qeyd edib ki, büdcənin formalaşdırılması istiqamətində 2017-ci il üçün müəyyən olunmuş 7 milyon 500 min manatlıq proqnoz-tapşırığa 101,07 faiz əməl olunub. Gömrük orqanları tərəfindən hesabat dövrü ərzində büdcəyə köçürülmüş vergi və rüsumlar Naxçıvan Muxtar Respublikasının büdcə gəlirlərinin 8,37 faizini təşkil edib.

Muxtar respublikamızın dünya iqtisadiyyatına inteqrasiyasının mühüm göstəricisi olan xarici ticarət dövriyyəsinin vəziyyətini təhlil edən komitə sədri xarici ticarət əlaqələrinin genişləndiyini, ixrac potensialının gücləndiyini önə çəkib. Qeyd olunub ki, hesabat dövründə 63 ölkə ilə ticarət əməliyyatları aparılıb, ixracın həcmi 1 faiz artıb.

2017-ci ildə gömrük orqanları tərəfindən qaçaqmalçılığa qarşı mübarizə istiqamətində də səylər artırılıb, əməliyyat-axtarış fəaliyyəti genişləndirilib. Hüquqpozma hallarının qarşısının alınması istiqamətində il ərzində aşkarlanmış dörd cinayət faktının üçü narkotik qaçaqmalçılığı ilə bağlı olub. Şahtaxtı gömrük sərhəd-buraxılış məntəqəsində X-Ray tipli rentgen-nəzarət qurğusunun təsvirləri əsasında muxtar respublikadan tranzit hərəkət edən Türkiyə Respublikasına məxsus nəqliyyatda külli miqdarda narkotik vasitə – heroin qaçaqmalçılığı faktının aşkarlanması Naxçıvan gömrüyünün bu sahədə ən böyük nailiyyəti olub.

Diqqətə çatdırılıb ki, ötən il gömrük orqanları tərəfindən psixotrop tərkibli dərmanların dövriyyəsinə tam nəzarət olunması üçün xüsusi proqram təminatı hazırlanıb. Muxtar respublika ərazisinə gətirilməsinə dair müvafiq icazə sənədi olmadığından vətəndaşlardan 76 min tabletkadan çox müxtəlif adda dərman vasitələri saxlanılıb ki, onların da 50 mindən çoxu psixotrop tərkibli olub.

İl ərzində gömrük qaydalarının pozulmasına görə inzibati qaydada 778 icraat aparılıb və 50 min 502 manat cərimə ödənişi təmin olunub.

Komitə sədrinin müavini, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli daxili bazarın qorunması istiqamətində görülmüş işlər və gömrük sistemində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi mövzusunda çıxış edib.

Kollegiya iclasında gömrük orqanlarında həyata keçirilən audit yoxlamalarının nəticələri müzakirə olunub və Naxçıvan Gömrük Ekspertizası İdarəsinin illik fəaliyyətinə dair hesabat dinlənilib.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində keçirilən müşavirədə xidmətin rəisi, baş miqrasiya xidməti müşaviri Şahin Nəbiyev məruzə edərək bildirib ki, 2017-ci il ərzində Dövlət Miqrasiya Xidməti tərəfindən qanunsuz əmək miqrasiyasının qarşısının alınması və iş icazələrinin qüvvədəolma qaydalarına nəzarət etmək məqsədilə müvafiq tədbirlər görülüb. Görülən işlərin nəticəsi olaraq ötən il ərzində muxtar respublika ərazisində qanunsuz və qeydiyyatsız yaşayan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 346 əcnəbi aşkarlanıb. Onlar haqqında qanunamüvafiq tədbirlər görülüb.

Bildirilib ki, hesabat dövründə əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkə ərazisində müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə bağlı xidmətə 626, daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı 7, müvəqqəti yaşama icazəsinin yenidən rəsmiləşdirilməsi ilə bağlı 6, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Naxçıvan Muxtar Respublikasında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün iş icazəsinin verilməsi ilə bağlı 37, Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə əlaqədar isə 337 müraciət daxil olub. Həmin müraciətlərin icrası mövcud qanunvericiliyə uyğun olaraq



həyata keçirilib.

Vurğulanıb ki, başa vurduğumuz il həm də əməkdaşlar üçün əlamətdar olub. Belə ki, 2017-ci il ərzində miqrasiya orqanları işçilərinin peşə bayramı münasibətilə xidmətin 3 əməkdaşı Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə “Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə” medalı ilə təltif edilib. Bir qrup əməkdaş xidmətin yaradılmasının 7-ci ildönümü ilə əlaqədar mükafatlandırılıb. Belə ki, xidmət rəisinə növbədənkənar, 3 əməkdaşa isə növbəti xüsusi rütbə verilib, 6 əməkdaş fəxri fərmanla təltif edilib, 2 əməkdaş qiymətli hədiyyə ilə mükafatlandırılıb, 3 əməkdaşa təşəkkür elan edilib.

Sonra məruzə ətrafında çıxışlar olub. Xidmətin 2018-ci il üçün iş planı təsdiq edilib və qarşıda duran vəzifələrlə bağlı struktur bölmələrə müvafiq tapşırıqlar verilib.

**Xəbərlər şöbəsi**

# 2017-ci ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyində 2017-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib. Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının nəqliyyat naziri Mirsənani Seyidov açaraq məruzə edib.*

Nazir bildirib ki, avtonəqliyyat vasitələri ilə təhlükəsiz sərnişin daşınması, marşrut qrafikinə nəzarət olunması məqsədilə yeni nəsil texnologiyalardan istifadə edilməsi işi ötən il də uğurla aparılıb. Belə ki, Naxçıvan-Bakı marşrutunda işləyən bütün avtobuslara Naxtel-4G GPS monitorinq izləmə sistemi quraşdırılıb. Ümumilikdə, bu günə qədər 50 avtonəqliyyat vasitəsinə GPS-in quraşdırılması başa çatdırılıb, Naxçıvan şəhərdaxili marşrutunda işləyən avtobus və taksilərə isə bu sistemin quraşdırılması işləri davam etdirilir.

Bildirilib ki, beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyət artırılıb, Türkiyə Respublikasının "Metro" və "İğdırlı" turizm şirkətləri ilə bağlanmış müqaviləyə əsasən Türkiyə Respublikasının İqdır şəhərinə avtobus marşrutu açılıb ki, həmin marşrut üzrə Naxçıvan Şəhər Təsərrüfathesablı Nəqliyyat İdarəsinə məxsus avtobuslar fəaliyyət göstərir. Habelə "Metro" turizm və "İğdırlı" turizm şirkətləri ilə Naxçıvandan Türkiyənin müxtəlif şəhərlərinə, İran İslam Respublikasının "Rah Pey Saba" şirkəti ilə Naxçıvan-Urmiya istiqamətində, "Didari Seyri Giti" şirkəti ilə Naxçıvan-Təbriz istiqamətində sərnişindaşıma xidməti göstərmək üçün bağlanmış müqavilələr yenilənib.

Vurğulanıb ki, ötən il ərzində qanunsuz sahibkarlıqla məşğul olan avtonəqliyyat vasitələrinin müəyyən olunması üçün mütəmadi olaraq reydlər keçirilib. Bu zaman 330 avtonəqliyyat vasitəsi sahibinin bu işlə qanunsuz məşğul olduğu müəyyən edilib. Həmin şəxslərlə aparılan profilaktik işlər nəticəsində onlardan 57 nəfəri yük və ya sərnişindaşıma fəaliyyətinə icazə verilməsi üçün müqavilə bağlamağa cəlb edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

***2017-ci ildə görülən işlər və qarşıda duran vəzifələrlə bağlı Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində keçirilən kollegiya iclasında təhsil naziri Məmməd Qəribov hesabat məruzəsi ilə çıxış edib.***

Bildirilib ki, yola saldığımız 2017-ci ildə muxtar respublikada bütün sahələrlə yanaşı, təhsilin səviyyəsi də yüksəldilib. Bunun nəticəsidir ki, Naxçıvan şəhərindəki 640 şagird yerlik 3 nömrəli, 376 şagird yerlik 13 nömrəli, Şərur şəhərindəki 1020 şagird yerlik 2 nömrəli, Şərur rayonunun Çəmənli kəndində 380, Ələkli və Qarahəsənli kəndlərinin hər birində 234, Babək rayonunun Payız kəndində 240, Gərməçataq kəndində 66, Ordubad rayonunun Üstüpü kəndində 340, Şahbuz rayonunun Kolanı kəndində 360 şagird yerlik tam orta məktəb binaları istifadəyə verilib. 480 şagird yerlik Naxçıvan şəhər 6 nömrəli tam orta məktəbin tikintisi başa çatıb.

Ümumtəhsil məktəblərinə, ümumilikdə, 4384 kompüter verilib, 655 elektron lövhə quraşdırılıb ki, onlardan da 599-u ümumtəhsil məktəblərinin payına düşür.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn məsələlərin həlli istiqamətində həyata keçirilən tədbirlər nəticəsində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələrin təşkili həyata keçirilir.

İstedadlı şagirdlərlə aparılan iş sahəsində də muxtar respublika üzrə mühüm tədbirlər görülüb və olimpiadalarda müvafiq yerlər əldə edilib. Azərbaycan Respublikası məktəblilərinin fənn olimpiadasında 20 şagird qalib gəlib ki, onlardan 2 nəfəri qızıl, 5 nəfəri gümüş, 13 nəfəri isə bürünc medala layiq görülüb.

Sonda məruzə ətrafında çıxışlar olub.

* * *

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində keçirilən kollegiya iclasında hesabat məruzəsi ilə çıxış edən komitənin sədri Vaqif Rəsulov bildirib ki, muxtar respublikanın sosial-iqtisadi həyatında baş verən dəyişikliklərin qeydə alınması, təhlil edilərək ümumiləşdirilməsi istiqamətində statistika orqanları tərəfindən 2017-ci ildə qanunvericilik üzrə müəyyən tədbirlər görülüb.***

Ötən il şəhər və rayon statistika idarələri ilə birlikdə komitənin Sənaye, tikinti, rabitə, nəqliyyat və kommunal statistikası şöbəsi üzrə 904 təsərrüfat subyektindən 5 min 565, Kənd təsərrüfatı statistikası şöbəsi üzrə 47 min 785 təsərrüfat subyektindən 49 min 736, Demoqrafiya, əmək və sosial statistikası şöbəsi üzrə 8 min 911 təsərrüfat subyektindən 22 min 737, Ticarət, xidmət və texniki təchizat statistikası şöbəsi üzrə 1320 təsərrüfat subyektindən 6 min 685, Qiymət statistikası şöbəsi üzrə 311 təsərrüfat subyektindən 3 min 427, Maliyyə və təsərrüfat şöbəsi üzrə 205 təsərrüfat subyektindən 1147 sayda olmaqla, cəmi 59 min 436 təsərrüfat subyektindən 89 min 297 sayda hesabat yığılıb. Bunların da 100 faizi onlayn şəkildə təqdim olunub. Hesabatlar komitənin aidiyyəti şöbələri tərəfindən ümumiləşdirilərək analiz edilib, muxtar respublika üzrə iqtisadi, sosial, demoqrafik və ekoloji sahələrin vəziyyətinə dair göstəricilər əldə olunub.

Vurğulanıb ki, komitənin müvafiq şöbələri tərəfindən 37 adda, o cümlədən "2017-ci ilin məhsulu üçün muxtar respublikada əkinlərin yekununa dair", "2016-cı ildə Naxçıvan Muxtar Respublikasının əsas demoqrafik göstəriciləri haqqında", "2016-cı ildə Naxçıvan Muxtar Respub-



likasında sosial göstəricilərə dair", "2016-cı ildə Naxçıvan Muxtar Respublikasında inzibati xətalara dair", "İri sənaye müəssisələrinin işinin əsas göstəriciləri haqqında", "Əsas fondların, obyektlərin istifadəyə verilməsi, əsas kapitala yönəldilmiş investisiyadan istifadə edilməsi və tikinti müəssisələrinin əsas göstəriciləri haqqında", "Ticarətin əsas göstəriciləri"nə dair və digər təhlili məruzələr, statistik bülletenlər hazırlanıb.

Diqqətə çatdırılıb ki, 2017-ci ildə komitənin aidiyyəti şöbələri tərəfindən Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin internet saytında 2016-cı ilin yekunu və 2017-ci il üzrə aylıq makroiqtisadi göstəricilərin, təhlil materiallarının və muxtar respublikada istifadəyə verilmiş obyektlərin fotoşəkillərinin yerləşdirilməsi işləri aparılıb. Ötən il kütləvi informasiya vasitələri ilə də sıx əlaqə saxlanılıb, muxtar respublikanın sosial-iqtisadi vəziyyətini əks etdirən kompleks materiallar dərc edilib, dövlət televiziyası müvafiq məlumatlarla təmin olunub, çıxışlar edilib. Komitədə kadr hazırlığını daha da təkmilləşdirmək məqsədilə müxtəlif vaxtlarda keçirilən treninq və seminarlarda komitə əməkdaşlarının iştirakı təmin edilib.

Məruzə ətrafında çıxışlar olub.

* * *

Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətində keçirilən kollegiya iclasında xidmətin rəisi Namiq Paşayev məruzə edərək bildirib ki, 2017-ci il ərzində muxtar respublikanın elektrik şəbəkələrinə 474 milyon 323 min 355 kilovat-saat elektrik enerjisi daxil olub. Bunun 42 milyon 632 min kilovat-saatı İran İslam Respublikasından alınıb, qalanı isə muxtar respublikanın elektrik stansiyaları tərəfindən ödənilib. Bəhs olunan dövrdə İran İslam Respublikasına 426 milyon 25 min kilovat-saat elektrik enerjisi verilib.



Qeyd edilib ki, ötən il xidmət tərəfindən elektrik stansiyalarında, yüksək və alçaqgərginlikli elektrik verilişi xətlərində, müxtəlif gərginlikli transformator yarımstansiyalarında qrafik əsasında təmir işləri aparılıb. Tələbatçıların elektrik enerjisi ilə təchizatının yaxşılaşdırılması, yaşayış sahələrinin, məktəblərin, sosial obyektlərin, hərbi hissələrin, nasos stansiyaları və artezian quyularının elektrik təchizatı üçün yeni transformator yarımstansiyalarının qoyulması, müxtəlif gərginlikli elektrik verilişi xətlərinin çəkilməsi, Naxçıvan şəhərində və rayon mərkəzlərində mövcud hava elektrik verilişi xətlərinin kabel xətləri ilə əvəz edilməsi sahəsində kompleks tədbirlər həyata keçirilib.

Bildirilib ki, ötən il muxtar respublikanın şəhər və kəndlərində 1 ədəd 35/10 kilovoltluq və 20 ədəd 10/04 kilovoltluq yeni transformator yarımstansiyaları quraşdırılıb, 46 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətti çəkilib, 16,5 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq hava elektrik verilişi xətləri kabel xətləri ilə əvəz edilib. Həmçinin 110/35/10 kilovoltluq "Koroğlu" yarımstansiyasını qidalandıran ikidövrəli 110 kilovoltluq "Naxçıvan-1" və "Naxçıvan-3" hava elektrik verilişi xətlərinin 1,2 kilometrlik hissəsi 110 kilovoltluq yeraltı kabel xətti ilə əvəzlənib. Hesabat dövründə Naxçıvan şəhərində, Şərur və Culfa rayonlarında yerləşən transformator təmiri sexlərində 102 ədəd 10/04 kilovoltluq transformatorlar təmir edilərək şəbəkələrə qaytarılıb.

Vurğulanıb ki, ötən il Naxçıvan şəhərində əhali abonentlərinin ev və mənzillərində ön ödənişli smartkarttipli sayğacların qoyulması işləri uğurla aparılıb. Belə ki, il ərzində 6019 ədəd belə sayğac quraşdırılaraq, ümumilikdə, smartkarttipli sayğacların sayı 20 min 765-ə çatdırılıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



*Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsində keçirilən tədbiri komitənin sədri Müslüm Cabbarzadə açıb.*

Bildirilib ki, ötən il komitənin tabeliyində olan Dövlət Yerquruluşu, Geodeziya və Xəritəçəkmə Layihə İnstitutu tərəfindən muxtar respublikanın dövlət idarə, müəssisə və təşkilatlarının sifarişi ilə topogeodeziya-ölçmə işləri aparılıb, 16 sifarişçi təşkilata cəmi 483 ədəd müxtəlif miqyaslı xəritə, plan və sxemlər hazırlanaraq təqdim edilib. Komitə və onun yerli idarələri tərəfindən girov predmeti olan 126 əmlak real bazar dəyərinə uyğun olaraq qiymətləndirilib. Sahibkarlara göstərilən bütün növ xidmətlərə görə müəyyən edilmiş rüsum və xidmət haqlarının banklar vasitəsilə, POS-terminallarla və onlayn qaydada ödənilməsi təmin edilib. İl ərzində sahibkarlara məxsus 352 əmlak üzrə məhdudiyyət və yüklülüyün qeydiyyatı aparılıb.

Vurğulanıb ki, ötən il muxtar respublika üzrə 2086 torpaq sahəsi, 75 qeyri-yaşayış binası, 74 qeyri-yaşayış sahəsi, 921 mənzil, 1852 fərdi yaşayış evi, 13 əmlak kompleksi kimi müəssisə olmaqla, cəmi 5021 daşınmaz əmlak obyekti qeydiyyata alınmışdır. Mülkiyyət hüquqlarının dövlət qeydiyyatına alınması və daşınmaz əmlakla bağlı digər əməliyyatların aparılması üçün 10783 ərizə qəbul edilib. Səyyar xidmət vasitəsilə muxtar respublika üzrə 92 yaşayış məntəqəsində 899 müraciətə baxılıb. Hesabat dövründə hazırlanmış 5091 texniki sənədin parametrləri Milli Qeydiyyat Sisteminə daxil edilib, 1795-i daşınmaz əmlakın texniki pasportu, 2006-sı isə torpaq sahələrinin planı və ölçüsü olmaqla, 3801 texniki sənəd hazırlanıb. Bundan əlavə, 2017-ci il ərzində muxtar respublika üzrə ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranmış 764 daşınmaz əmlak obyektinə ünvan verilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



***Muxtar respublikamızda əldə olunan sabitlik və iqtisadi inkişaf iqtisadiyyatın bütün sahələrində olduğu kimi, yol-nəqliyyat kompleksinin də yenidən qurulmasına, müasir avtomobil yollarının çəkilişinə əlverişli şərait yaradıb. Bu fikirlər Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətində 2017-ci ilin yekunları və 2018-ci ildə qarşıda duran vəzifələrlə bağlı keçirilən tədbirdə baş direktor Bəhruz Əsgərovun çıxışında vurğulanıb.***

Bildirilib ki, muxtar respublika iqtisadiyyatının inkişafında mühüm rol oynayan yol infrastrukturunun bərpa və yenidən qurulması işləri 2017-ci ildə də diqqət mərkəzində saxlanılıb, ümumilikdə, ötən il muxtar respublikamızda 70 kilometrlik yeni asfalt yollar salınıb, 12 körpü tikilərək və ya yenidən qurularaq istifadəyə verilib. Həyata keçirilən kompleks tədbirlər nəticəsində muxtar respublikamızda mövcud olan 274 kilometr dövlət əhəmiyyətli, 1199 kilometr isə yerli əhəmiyyətli avtomobil yollarında hərəkətin intensivliyi təmin olunub.

Diqqətə çatdırılıb ki, hesabat dövründə Şərur rayonu Aşağı Aralıq kənd avtomobil yolunun asfalt-beton örtüyü bərpa olunub, rayondaxili avtomobil yollarında çala təmiri işləri görülüb, Naxçıvan-Sədərək magistral avtomobil yolunda asfalt-beton örtüyün zədələnmiş hissələrində bərpa işləri aparılıb. Bundan əlavə, Xanlıqlar-Vərməziyar-Ərəbyengicə-Qarahəsənli kənd avtomobil yolları yenidən qurulub, yol yatağı genişləndirilib, müvafiq olaraq 13,7 kilometr məsafədə asfalt-beton örtük salınıb və həmin yollar müasir standartlara uyğun vəziyyətə gətirilib.

Baş direktor vurğulayıb ki, Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən Prezidentin Ehtiyat Fondundan ayrılmış 6,1 milyon manat vəsait hesabına 20 kilometrlik Düylün-Çənnəb-Üstüpü-Məzrə kənd avtomobil yolunun yenidən qurulması başa çatdırılıb.

Culfa rayonunda görülmüş işlərdən bəhs edən baş direktor bildirib ki, rayondaxili avtomobil yollarında çala təmiri işləri, Dizə kənd avtomobil yolunun isə yenidən qurulması işi başa çatdırılıb, 8,9 kilometr kəndin giriş və daxili yollarına asfalt örtük salınıb. Həyata keçirilən bütün tədbirlər Babək rayonundan da yan keçməyib. Rayonun Şıxmahmud və Xəlilli kəndlərini Naxçıvan şəhəri ilə birləşdirən, uzunluğu 13,3 kilometr olan avtomobil yolu əsaslı yenidənqurma işlərindən sonra istifadəyə verilib. Rayonun Payız kəndində avtomobil yolunun yenidən qurulması işləri aparılıb, 5,2 kilometrlik yola asfalt örtük salınıb. Gərməçataq kəndində 5,7 kilometr uzunluğunda yol əsaslı təmir edilib.

Qeyd edilib ki, hesabat dövründə Kəngərli rayonunda da bu istiqamətdə işlər davam etdirilib, rayondaxili avtomobil yolunun yenidən qurulması, Qarabağlar kənd avtomobil yolunda abadlıq və selötürücü kanalların tikintisi işləri aparılıb. Sədərək rayonunda görülən işlərə toxunan baş direktor qeyd edib ki, bu dövrdə Sədərək Rayon Mədəniyyət Evinə gedən avtomobil yolunda 1,9 kilometr asfalt-beton işləri görülüb, 71 metr beton su kanalı, 10 su keçidi çəkilib, kənddaxili yollara 700 metr uzunluğunda qum-çınqıl qatı verilib.

Sonda məruzə ətrafında müzakirələr aparılıb.

**Xəbərlər şöbəsi**



Journalistin qeydləri

# Böyük uğurların təməlində insana qayğı dayanır

*Əvvəlki illərdə olduğu kimi, 2017-ci ildə də həyatımızın bütün sahələrini əhatə edən yeniləşmə prosesi davam etdirildi, kompleks quruculuq tədbirlərinin coğrafiyası genişləndirildi, emal və istehsal sahələrinin inkişafına dəstək göstərildi, yeni iş yerlərinin yaradılması diqqət mərkəzində saxlanıldı. Həyata keçirilən məqsədyönlü tədbirlər uğurlu nəticələr qazanılmasını təmin etdi. Yenə də görülən işlərin təməlində insana qayğı amilinin dayandığını gördük.*

*Haşiyə.* Bir neçə il əvvəl Culfa rayonunun Yaycı kəndindən yazı hazırlamağa getmişdim. Burada kənd ziyalıları, ağsaqqalları ilə həmsöhbət oldum. Onlardan birinin sözlərini indi də yaxşı xatırlayıram. Uzun illər kənd məktəbində müəllim işləyən, hazırda təqaüddə olan Məhərrəm Məmmədov deyirdi:

– İnsanın həmişə qayğıya ehtiyacı var. Bəziləri bunu dilinə gətirmir, susmağa üstünlük verir, bəziləri məcburiyyət qarşısında müəyyən ehtiyacının ödənilməsi üçün kimlərəsə üz tutur. Bu gün Naxçıvanda buna ehtiyac qalmayıb. Muxtar respublikamızın ən ucqar dağ kəndləri də bu gün abadlaşdırılıb, sakinlərin rahat yaşayışı təmin olunub. Bizim Yaycı da qədim diyarımızın abadlaşan kəndlərindəndir. Onu da qeyd edim ki, Yaycıda həm ötən əsrin əvvəllərində daşnakların qədim diyarımıza hücumları zamanı, həm 1941-1945-ci illər müharibəsində, həm də 1988-ci ildən başlanan münaqişə nəticəsində yüzlərlə insan həlak olub. Sevindirici haldır ki, bizim kənddə onların xatirəsinə abidə ucaldılıb. Həmin abidə həm tarixi keçmişimizə ehtiramın əlaməti, həm də həyatını öz el-obası yolunda qurban verən insanların xatirəsinə hörmətin ifadəsidir. Abidə gənclərə sabaha cavabdehlik hissini, dövlətçiliyin qorunmasının, müstəqilliyin möhkəmləndirilməsinin əhəmiyyətini aşılayır.

Digər bir həmsöhbətim – Ordubad rayonunun Nürgüt kənd tam orta məktəbinin direktoru Hikmət Quliyev isə deyir ki, illər əvvəl səhər kənddən yola düşəndə günortadan sonra rayon mərkəzinə çatırdıq. Çünki yollarımız bərbad vəziyyətdə idi. Belə çətinlikləri hər sahədə görmək olardı. Etiraf edim ki, elə bu səbəbdən doğma kəndi tərk edənlər də az olmadı. Onlar bu gün artıq kəndə qayıdıblar. Çünki hazırda Nürgüt ölkəmizin ən müasir yaşayış məntəqələrindən birinə çevrilib. Kənddə kompleks quruculuq tədbirləri həyata keçirilib, yollarımız abadlaşdırılıb. Bunların hamısı muxtar respublikamızda insan amilinə verilən dəyərin bariz nümunəsidir.

Mətləbdən uzaq düşmədən 2017-ci ilə qayıtsaq, belə qayğının davamlı xarakter aldığının şahidi olarıq. Düzdür, atalar deyib ki, görünən dağa nə bələdçi? Ancaq o da var ki, indiki nəsil dünənimizlə bu günümüzü müqayisə etməyi bacarmalıdır. Dünən insanlar necə yaşayırdılar? Onların qayğıları, problemləri nə idi? Bu problemlərin həllinə dövlət səviyyəsində necə yanaşılırdı? Belə suallar çoxdur. O dövrü yaşayan insanlar həmin suallara çox dolğun cavab verə bilərlər. Ancaq həmin cavablar hamımızda bir məyusluq yaradacaq. Nə isə...

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarının birində deyib: ***“Bizim siyasətimizin məqsədi ölkəmizi gücləndirməkdir, müstəqilliyimizi möhkəmləndirməkdir və dayanıqlı inkişafa nail olmaqdır. Məqsəd ondan ibarətdir ki, vətəndaşlarımız daha da yaxşı yaşasın”.***

Qədim yurd yerimizdə görülən işlərin təməlində məhz bu amil dayanır: vətəndaşlarımız daha da yaxşı yaşasın. Bu isə, sözsüz ki, siyasi sabitlik olan, sosial-iqtisadi inkişaf təmin edilən və insanlara qayğı göstərilən yerdə mümkündür – muxtar respublikamızda olduğu kimi. 2017-ci il də belə faktlarla zəngin olub.

Ötən il dekabr ayının 30-da keçirilən beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında Ali Məclisin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“2017-ci ilin nəticələri bundan əvvəlki dövrlərin göstəriciləri ilə müqayisədə xeyli artmışdır. Daxili imkanlardan səmərəli istifadə hesabına yeni istehsal müəssisələrinin işə salınması iqtisadiyyatın çoxsahəli inkişafına, məşğulluq səviyyəsinin yüksəldilməsinə, yeni sosial layihələrin həyata keçirilməsinə imkan yaratmışdır... Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarının icrası da infrastrukturun yenilənməsinə, ərzaq və enerji təhlükəsizliyinin... təmin edilməsinə müsbət təsir göstərmişdir”.***

Elə 2016-cı ilin yekunları da göstərirdi ki, ondan sonrakı ildə daha böyük nəticələrə nail olmaq üçün neçə illərdir, yaradılmış baza, düzgün müəyyənləşdirilmiş inkişaf strategiyası – “Naxçıvan modeli” öz sözünü deyəcək. Belə də oldu. 2017-ci ilin son günlərində aldığımız bir xəbər isə sanki hər bir naxçıvanlıya bayram hədiyyəsi oldu. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, buradakı işgüzar mühit və yaradılan infrastruktur beynəlxalq reytinq agentliklərinin də diqqətini cəlb etdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədri olduğu “Caspian European Club”un ölkəmizin iqtisadi regionları üzrə elan etdiyi illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ən yüksək bal toplayaraq birinci yerə çıxdı.

Məlumat üçün bildirək ki, xarici ölkələrin diplomatik nümayəndəlik və mütəxəssislərinin də rəylərinin əks olunduğu “Caspian European Club”un nəşrləri dünyanın 70 ölkəsinin dövlət və hökumət başçılarına, dövlət və transmilli şirkətlərin, beynəlxalq maliyyə institutlarının, aparıcı analitik mərkəzlərin, investisiya şirkətlərinin və reytinq agentliklərinin rəhbərlərinə təqdim olunur və geniş beynəlxalq oxucu auditoriyasının diqqətinə çatdırılır. Bu nüfuzlu təşkilatın 18 parametr və 6 qrup üzrə hazırladığı təhlillər muxtar respublikamızda iqtisadi inkişafın artan dinamika ilə getdiyini bir daha təsdiq etdi. Təbii ki, bu inkişafdan bəhrələnən muxtar respublika sakinləridir.

Müraciət etdiyimiz mövzu elə genişdir ki, bu istiqamətdə görülən işləri kiçik bir yazıda bütün parametrləri ilə əhatə etmək mümkün deyil. Sadəcə olaraq onlardan bir neçəsini sadalamaq kifayət edər. Bəhs olunan müddətdə insanların mənzil-məişət şəraitinin yaxşılaşdırılması, naxçıvanlıların ərzaq təhlükəsizliyinin təmin edilməsi, bu məqsədlə emal və istehsal müəssisələrinin, nəticə etibarilə sahibkarlığın problemlərinə həssaslıqla yanaşılması, aztəminatlı ailələrə yardımların göstərilməsi, məhdud fiziki imkanlı şəxslərin cəmiyyətə inteqrasiyası, insanların sağlamlığının mühafizəsi üçün səhiyyə müəssisələrinin müasir tibbi avadanlıqlarla təchizatı, müxtəlif sahələrdə qazandıqları uğurlara görə insanların əməyinin dövlət təltiflərinə layiq görülməsi və həyata keçirilən digər tədbirlər məhz insana qayğının ifadəsi olaraq dəyərləndirilir.

Son olaraq onu da deyək ki, bu illər ərzində muxtar respublikada daha bir ənənə formalaşıb. Bu, hər ilin son günü Naxçıvan Qarnizonunun Hərbi Hospitalına, Psixi və Ağciyər Xəstəlikləri dispanserlərinə, Onkoloji və Yoluxucu Xəstəliklər mərkəzlərinə bayram sovqatlarının aparılması, Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı münasibətilə keçirilən şənliklərdə Ali Məclis Sədrinin sakinlərlə görüşməsidir. Ali Məclis Sədrinin məktəblilər – Nazlı İbrahimli və Yusif Dadaşovla görüşməsi, onlarla söhbəti muxtar respublika rəhbərinin bütün naxçıvanlılara diqqət və qayğısının ifadəsi kimi yadda qalıb.

*Artıq 2018-ci ilin ilk ayını yaşayırıq. İlə 2017-ci ildə qazanılmış böyük uğurların sevinci ilə qədəm qoymuşuq. Bu, hər birimizdə bu ildə yeni uğurlar, yeni qələbələr qazanacağımıza böyük ümidlər yaradır.*

Muxtar MƏMMƏDOV

# Gənclərin hərbi xidmətə yola salınması mərasimi keçirilib

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması mərasimi keçirilib.***



Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanov, ədliyyə nazirinin müavini Emin Səfərov, gənclər və idman nazirinin müavini Mirməcid Seyidov, təhsil nazirinin müavini Əli Vəliyev çıxış edərək əlamətdar hadisə münasibətilə çağırışçıları və onların valideynlərini təbrik ediblər.

Valideyn Şükür Nəbiyev ordu sıralarına yola düşən gənclərə xoş arzularını çatdırıb, övladının hərbi xidmətə yollanmasından qürur hissi keçirdiyini deyib.

Çağırışçılar adından çıxış edən Mirqasım Seyidov Vətənə şərəflə xidmət edəcəklərinə, verilən əmr və tapşırıqları can-başla yerinə yetirəcəklərinə söz verib.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanov bildirib ki, “Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 1 dekabr tarixli Sərəncamına əsasən ölkəmizdə, eləcə də muxtar respublikamızda gənclərin müddətli həqiqi hərbi xidmətə yola salınması prosesinə başlanılıb. Qeyd olunub ki, ölkəmizdə ordu quruculuğuna göstərilən dövlət qayğısı Silahlı Qüvvələrimizin hərtərəfli inkişafına və güclənməsinə səbəb olub. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrin də maddi-texniki təminatı gücləndirilib, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırılıb. Yaradılmış şərait çağırışyaşlı gənclərin hərbi hissələrdə nümunəvi xidmətinə imkan verir.

Xidmət rəisi hərbi xidmətə yola düşən çağırışçıların valideynlərini və yaxınlarını təbrik edib, əmin olduğunu bildirib ki, övladları ordu sıralarında ləyaqətlə xidmət keçməklə, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanmaqla onların başını uca edəcəklər.

Mərasim Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başa çatıb.

Həmin gün Şahbuz və Sədərək rayonlarında da gənclərin hərbi xidmətə yola salınması mərasimləri keçirilib.

Səbuhi HƏSƏNOV

***Naxçıvan Dövlət Universitetində Təbiətşünaslıq və kənd təsərrüfatı, İncəsənət fakültələri üçün yeni avadanlıqlar təqdim olunub.***

# Ali təhsil ocağının maddi-texniki bazası gücləndirilir

Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bu münasibətlə keçirilən tədbirdə çıxış edərək qeyd edib ki, ali təhsil ocağında müasir infrastrukturun yaradılması və tədrisin keyfiyyətinin artırılması istiqamətində görülən işlər muxtar respublikamızda təhsilin inkişafına göstərilən hərtərəfli dövlət qayğısının əyani ifadəsidir.

Coğrafiya kafedrasının müdiri, dosent Əli Həsənov bildirib ki, göstərilən yüksək diqqət və qayğının nəticəsində bu gün fakültə və ixtisaslar ayrı-ayrılıqda ən müasir avadanlıqlarla təchiz olunur. Təbiətşünaslıq və kənd təsərrüfatı fakültələri də bu qayğıdan bəhrələnib.

Kafedra müdiri ayrı-ayrı ixtisaslar üçün nəzərdə tutulan 25 min manat məbləğində yeni alınmış avadanlıqlar haqqında ətraflı məlumat verib. Bildirib ki, küləyin sürətini, istiqamətini, temperaturu, yağıntının miqdarını təyin etmək üçün istifadə olunan meteo-budka, Günəş, Yer, Ay sistemini əks etdirən telluri, su hövzələrinin şəffaflığının müəyyən edilməsində əvəzsiz rol oynayan sekka diski, vulkanın kəsiyinin modeli, Geodeziya və xəritəçəkmə ixtisası tələbələri üçün nəzərdə tutulan topoqrafik dəst, xəritədə, planda, xüsusilə əyri xətlərin ölçülməsində istifadə olunan kuvrimetr, küləyin istiqamətini, gücünü müəyyən etmək üçün açılan-yığılan flüger, nümayiş olunmaq və elektron formada təqdim etmək üçün barometr-aneroidin iki növü, dünyanın kiçikmiqyaslı siyasi və böyükmiqyaslı fiziki xəritələri fakültəyə təqdim olunub.

İncəsənət fakültəsi üçün isə bir cüt aktiv və passiv səsucaldan, bir səstənzimləyən aparat, 20 simli, 2 kabelsiz mikrofon, 20 not pultu və bir sıra avadanlıqlar alınıb.

Qeyd edək ki, İncəsənət fakültəsinə təqdim edilən avadanlıqların dəyəri 15 min 600 manatdır.

Tədbirdə çıxış edənlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Səadət ƏLİYEVA

# Naxçıvan məhsulları *“Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018”* loqosu ilə satışa çıxarılacaq

***Məlum olduğu kimi, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin 2009-cu ilin oktyabrında Bakı şəhərində keçirilmiş altıncı konfransında qəbul edilmiş qərarla Naxçıvan şəhəri 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilib. Bu, muxtar respublikamızın, ölkəmizin, ümumilikdə isə İslam dünyasının mədəni həyatında yaddaqalan bir hadisə olacaq.***

Naxçıvanın İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı keçiriləcək tədbirlərdə muxtar respublikanın mədəniyyətinin, onun zəngin turizm potensialının tanıdılması ilə yanaşı, həm də istehsal olunan məhsullarımızın təkcə İslam ölkələrində deyil, eyni zamanda dünyanın bir çox ölkələrində təbliği baxımından əhəmiyyətlidir. Bu baxımdan “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018” loqosu ilə satışa çıxarılan “Naxçıvan Məhsulları” MMC-nin istehsalı olan və nəfis şəkildə qablaşdırılmış hədiyyəlik meyvə qurusu məhsulları şəhərimizə gələn turistlər və yerli sakinlər tərəfindən maraqla qarşılanacaq.

Ötən ildən başlayaraq “Naxçıvan Məhsulları” MMC-də, ümumilikdə, 25-dən artıq çeşiddə meyvə quruları istehsal olunub qablaşdırılır. Bu məhsullardan 9 çeşidinin üzərində “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018” loqosu yer almaqdadır. Alma, şaftalı, gavalı, qovun və digər yüksəkkeyfiyyətli Naxçıvan meyvə-tərəvəzlərinin xüsusi avadanlıqda qurudularaq qablaşdırıldığı bu məhsullar alıcılar tərəfindən böyük maraqla qarşılanır.

Qeyd edək ki, yüksək keyfiyyət standartlarına cavab verən, 90 və 250 qramlıq paketlərdə istehsal edilən bu məhsullar muxtar respublikamızın ticarət obyektlərindən başqa, ölkəmizin



paytaxtına, habelə Türkiyə Respublikasına da göndərilir. Gələcəkdə bu məhsulların Rusiya və Ukraynaya da ixrac edilməsi nəzərdə tutulur.

Əli CABBAROV

***2017-ci il Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi üçün bir çox əlamətdar hadisələrlə – muxtar respublikada idmanın inkişafı və kütləviliyi məqsədilə 200-ə yaxın yarış, turnir təşkil etməklə uşaqların, yeniyetmə və gənclərin bu sahəyə cəlb edilməsi ilə yadda qaldı. Ötən il nazirlik muxtar respublikamızda fəaliyyət göstərən idman federasiyaları ilə birlikdə nəinki ölkəmiqyaslı yarışlarda, həmçinin beynəlxalq turnirlərdə də idmançılarımızın uğur qazanmasında müstəsna rol oynadı. İdmançılarımız il ərzində olimpiya və qeyri-olimpiya idman növləri üzrə Azərbaycan çempionatlarında, rəsmi beynəlxalq yarışlarda – dünya və Avropa çempionatları və birinciliklərində, kubok yarışlarında parlaq qələbələr qazanmaqla Naxçıvanda idmana və idmançılara olan diqqət və qayğının yüksək dərəcədə olduğunu bir daha sübut etdilər.***

# Ötən il idmançılarımız üçün uğurlu olub

## *Geridə qoyduğumuz ildə keçirilən idman tədbirləri bu sahənin inkişafını bir daha sübut etdi*





### *Ölkədaxili və beynəlxalq turnirlər*

Geridə qoyduğumuz ilin ilk aylarında karateçilərimizin çıxışı 2017-ci ilin uğurlu olacağından xəbər verirdi. 20 Yanvar şəhidlərinin xatirəsinə həsr olunmuş uşaqlar, yeniyetmə və gənclər arasında karate-do üzrə klublararası beynəlxalq turnirdə tatami üzərinə çıxan idmançılarımız 5 müxtəlif əyarlı medal qazanıblar. İl ərzində idmançılarımız Gürcüstanın Tbilisi, Türkiyənin Ərzurum, Rusiyanın Krım, Ukraynanın Dnepr və İran İslam Respublikasının Urmiya şəhərlərində keçirilən beynəlxalq turnirlərdə muxtar respublikanı layiqincə təmsil ediblər. Bu uğurlu estafeti boksçularımız İran İslam Respublikasının Qərbi Azərbaycan vilayətində keçirilən beynəlxalq turnirdə davam etdirərək 5 medal qazanıblar. Bu, 2017-ci ildə dəri əlcək sahiblərimizin qazandığı yeganə uğur deyil. Belə ki, boksçularımız Bakı şəhərində gənclər arasında keçirilən Azərbaycan birinciliyində, IX "Böyük İpək Yolu" və IV İslam Həmrəylik Oyunlarında, Türkiyənin İqdır şəhərində keçirilən beynəlxalq turnirlərdə fəxri kürsünün ən yüksək zirvəsinə qalxıblar. Sərbəst güləşçilərimiz isə İranın Urmiya şəhərində komanda hesabında bu uğura imza atıblar. Bununla kifayətlənməyən Güləş Federasiyasının yetirmələri ölkəmizin müxtəlif bölgələrində keçirilən yarışlarda, həmçinin Türkiyə Respublikasının Sakarya şəhərində təşkil olunan cüdo üzrə beynəlxalq turnirdə muxtar respublika idmanını layiqincə təmsil ediblər.

2017-ci ildə şahmatçılarımız, yüngül atletlərimiz və paralimpiyaçılarımız da çıxış etdikləri turnirlərdən əliboş qayıtmayıblar. Xüsusilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin nəzdində fəaliyyət göstərən Şərur rayon ağır atletika bölməsinin yetirməsi Tərminxan Babayevin 6 dəfə Avropa rekordunu təkrarlaması nəinki Avropa, hətta dünya atletikasında da böyük ajiotaj yaratdı.

Şərq Döyüş Sənəti Federasiyasını "ilin federasiyası" adlandırsaq, yanılmarıq. 2017-ci ildə bütün respublika turnir və çempionatlarında 20-dən çox müxtəlif əyarlı medal qazanan idmançılarımız beynəlxalq turnirlərdə də layiqli çıxış ediblər. Belə ki, Bakı şəhərində keçirilən tempo üzrə II Asiya çempionatında Səyyad Məmmədov, Heydər Quliyev, kikboksinq üzrə Türkdilli dövlətlər arasında beynəlxalq turnirdə Ruslan Musayev (həmçinin Macarıstanın Budapeşt şəhərində keçirilən kikboksinq üzrə dünya çempionatında), Bakı şəhərində keçirilən qarışıq döyüş növləri üzrə beynəlxalq turnirdə Fərid Məhərrəmov, Rəzzaq Əliyev, Tağı Məmmədov, Bakı Əl Oyunları Sarayında Grappling idman növü üzrə dünya çempionatında Fərid Məhərrəmov, peşəkarlar arasında universal döyüş növü üzrə beynəlxalq turnirdə isə Rəzzaq Əliyev bütün rəqiblərini üstələməyi bacarıblar.

### *Ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş yarışlar*

Hər il olduğu kimi, 2017-ci ildə də ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş turnirlər keçirilib. Boks, kikboksinq, güləş və digər idman növləri üzrə keçirilən bu turnir və yarışlarda beş minə yaxın idmançı mübarizə aparıb.

"Heydər Əliyev kuboku" uğrunda "Əlincəqala" tarixi abidəsinə yürüş və karate-do üzrə Naxçıvan Muxtar Respublikası açıq çempionatı ilin yaddaqalan yarışlarından olub.

Kollektiv idman növlərindən olan voleybol, basketbol, futbol və peyntbol üzrə muxtar respublika birinciliklərində 200-ə yaxın idmançı iştirak etməklə bu idman növlərinin geniş yayıldığını bir daha nümayiş etdiriblər. Həmçinin may ayı ərzində paralimpiyaçılar arasında futzal, ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında kross qaçışı üzrə muxtar respublika turnirləri də təşkil edilib.

Keçirilən yerli turnirlərlə yanaşı, muxtar respublika ulu öndərin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş beynəlxalq və ölkədaxili turnirlərə də ev sahibliyi edib. Artıq ənənə halını alan "Naxçıvan – 2017" Beynəlxalq Şahmat Festivalında 9 ölkədən 302 şahmatçı mübarizə aparıb. 80 şahmatçımızın iştirak etdiyi festivalda C qrupunda 12 yaşadək şahmatçılar arasında Seyid Hüseyn qalib adını qazanıb. 3-7 may tarixlərində İlham Əliyev adına Olimpiya-İdman Kompleksində pauerliftinq və bench-press idman növü üzrə beynəlxalq turnirdə isə 14 idmançımız böyük uğura imza atıb. Naxçıvan Muxtar Respublika Stadionunda futbol üzrə "Heydər Əliyev kuboku" turnirində mübarizə aparan "Araz-Naxçıvan" komandası üçüncü olub.

Boks üzrə yeniyetmələr arasında "Heydər Əliyev kuboku – 2017" beynəlxalq turnirdə isə 4 dəri əlcək sahibimiz mükafatçılar sırasına düşüb.

### *Kollektiv idman növləri*

10-17 noyabr – Beynəlxalq Tələbə Gənclər Həftəsinə həsr olunmuş ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında keçirilən bir sıra yarışlarla yanaşı, geridə qoyduğumuz il daha bir məqamla yaddaşlara həkk olunub. 2017-ci ildə individual idman növləri ilə yanaşı, kollektiv idman növlərinin geniş yayılması və bu idman növləri üzrə daha çox turnirlərin, yarışların təşkil edilməsi diqqətdən yayınmayıb. Basketbol Federasiyası yoldaşlıq görüşləri ilə yanaşı, Gənclər və İdman Nazirliyi ilə birgə muxtar respublika birinciliyi də təşkil edib və bu birinciliklərdə, ümumilikdə, 250-yə yaxın idmançı qələbə uğrunda mübarizə aparıb. Həmçinin Voleybol Federasiyası da il ərzində 10-dan çox yoldaşlıq görüşü və yarışlar keçirməklə, bu sahənin inkişafına öz töhfəsini verib. Bəhs olunan dövrdə Atıcılıq Federasiyası da bu növün inkişafı, kütləviliyi üçün müəyyən işlər görüb. Federasiya məktəblilər arasında peyntbol üzrə





Naxçıvan şəhər birinciliyi, "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə ümumtəhsil məktəblərinin şagirdləri arasında muxtar respublika üzrə zona birinciliyi təşkil edib. Bu yarışlarda 200-dən çox idmançı qüvvəsini sınayıb. Paralimpiya Federasiyası isə sağlamlıq imkanları məhdud vətəndaşların iştirakı ilə şəhər və muxtar respublika birincilikləri keçirməklə bu qəbildən olan insanlara diqqət və qayğının hər zaman nəzərdə olduğunu nümayiş etdirib. Ümumilikdə, 2017-ci ildə keçirilən kollektiv idman növlərində 2000-ə yaxın idmançı iştirak edib.

Bunlarla yanaşı, İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə kişilər arasında Azərbaycan çempionatının final mərhələsi keçirilib və Naxçıvan Muxtar Respublikasının voleybol üzrə yığma komandası üçüncü yerə layiq görülüb. Bu kompleksdə sağlamlıq imkanları məhdud şəxslər arasında armrestlinq idman növü üzrə muxtar respublika birinciliyi də təşkil edilib.

Muxtar respublikada gənclərin asudə vaxtlarının səmərəli təşkili məqsədilə gənclərdən ibarət kənd komandaları arasında futbol üzrə şəhər və rayon birincilikləri də yaddaqalan olub. Geridə qoyduğumuz ildə ilk dəfə olaraq Şərur Olimpiya-İdman Kompleksində Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyası idmançılarının və məşqçi müəllimlərinin Bakı şəhərindən dəvət olunmuş Beynəlxalq dərəcəli hakim, yeniyetmələrdən ibarət kikboksinq üzrə yığma komandanın məşqçisi Elnur Alıyev və məşqçi köməkçisi Camal Məmmədovun iştirakı ilə təlim-məşq toplanışı təşkil olunub. İl ərzində federasiyaların idmançılar üçün Bakı şəhərindən dəvət olunmuş məşqçiləri tərəfindən seminarlar keçirilib.

Maarifləndirici tədbirlər çərçivəsində gənclərin intellektual qabiliyyətinin inkişafına yönəldilən və il ərzində mütəmadi olaraq davam etdirilən "Nuh yurdu", "Xəmsə", "Kim? Nə? Hara?", "Nə? Harada? Nə zaman?", "Axtar – tap", "Vətəni tanı", "İntellektual gənc" kimi bilik yarışmaları da gənclər tərəfindən böyük maraqla qarşılanıb və bu tədbirlərdə yüzlərlə gənc iştirak edib. Eyni zamanda qaliblərin Bakı şəhərində keçirilən "Azərbaycan İntellektual Birincisi" layihəsinin final mərhələsində və yeniyetmələr arasında "Xəmsə" Milli İntellektual Oyununun V Azərbaycan çempionatında iştirakı təmin edilib. Komandalarımız "Nə? Harada? Nə zaman?" və "Vətəni tanı" intellektual oyunlarında III yerə layiq görülüb.

### *İndividual idman növləri*

Kollektiv idman növlərindən fərqli olaraq müasir idmanda fərdi növlərə üstünlük verən idmançıların sayı getdikcə artmaqdadır. Bəs geridə qoyduğumuz ildə Naxçıvanda fərdi idman növləri üzrə hansı yarışlar keçirilib? Qısa xülasə...

*Şərq döyüş sənəti.* Bu federasiyanın cari ildə gördüyü işləri qənaətbəxş hesab etmək olar. Çünki federasiya Gənclər və İdman Nazirliyi ilə birgə bu idman növlərinin inkişafı üçün turnirlər təşkil edib, kütləviliyə nail olmaq üçün muxtar respublikanın bütün rayonlarında yarışlar keçirilib. Bu yarışlardan MMA, kikboksinq idman növləri üzrə müxtəlif respublika, Naxçıvan şəhər açıq birinciliklərini xüsusi qeyd etmək lazımdır. Geridə qoyduğumuz il ərzində federasiyanın muxtar respublikanın bir neçə kəndində bölməsi fəaliyyətə başlayıb.

*Boks.* Nazirliyin tədbirlər planına əsasən muxtar respublikada keçirilən boks yarışlarında, ümumilikdə, 300-dən artıq dəri əlcək sahibi iştirak edib.

*Güləş.* Güləş Federasiyasının 2017-ci il ərzində keçirdiyi şəhər və muxtar respublika birinciliklərində 300-dən artıq pəhləvan qüvvəsini sınayıb.

*Şahmat.* Ötən ili Şahmat Federasiyası üçün də uğurlu il hesab edə bilərik. 12 ay ərzində federasiya nazirliklə birgə bir çox yarışlar təşkil edib. Naxçıvan Şahmat Mərkəzində məktəblilərin yay tətilinin səmərəli təşkili məqsədilə Şahmat Mərkəzinin tempo turniri, 18 yaşadək sağlamlıq imkanları məhdud uşaqlar arasında şahmat üzrə muxtar respublika birinciliyini xüsusilə qeyd etməliyik.

*Karate-do.* Federasiya 2017-ci ildə bir çox yarışların keçirilməsinə imza atıb. Daha çox beynəlxalq turnirlərdə uğur qazanan idmançılar muxtar respublika daxilində təşkil edilən yarışlarda da qüvvələrini sınayıblar. Culfa və Şərur rayonlarında şəhər və rayon komandaları arasındakı yoldaşlıq görüşləri, Culfa rayonunda karate-do üzrə Naxçıvan şəhər və Culfa rayon komandaları arasında 8 yaş kateqoriyasında yoldaşlıq görüşü, karate-do üzrə texniki seminar keçirməsi bu idman növünün muxtar respublikanın bütün regionlarında inkişaf etdiyini bir daha göstərib.

*Digər növlər.* 2017-ci ildə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, demək olar ki, hər ay yarış və turnirlər təşkil etməklə gənclərin idmana axınını sürətləndirib. Geridə qoyduğumuz ildə keçirilən tir atıcılığı, atıcılığın stend növü, pauerliftinq, qızlar arasında üzgüçülük, peyntbol, velosiped yarışı, stolüstü tennis üzrə şəhər və rayon, həmçinin muxtar respublika birincilikləri idmana olan marağı daha da artırıb.

Bəhs olunan dövrdə naxçıvanlı idmançılar dünya və Avropa çempionatlarında, beynəlxalq turnirlərdə mükafatlar qazanmaqla, idmana göstərilən diqqətin hədər yerə getmədiyini bir daha sübuta yetiriblər. Belə ki, 2017-ci il ərzində Naxçıvan idmançıları respublika səviyyəli yarışlarda 129, beynəlxalq miqyaslı turnirlərdə 89, dünya səviyyəli yarışlarda 5, Avropa çempionatlarında 1, Asiya çempionatlarında 2, Avrasiya çempionatlarında 13, IV İslam Həmrəyliyi Oyunlarında 1 medal olmaqla, ümumilikdə, muxtar respublikadan kənar yarışlarda 240 medal qazanıblar. Qeyd edək ki, bu nəticə əvvəlki ilin analoji dövrü ilə müqayisədə 2 dəfə çoxdur.

**Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 48